**Britaniya lordları ADA Universitetində "Azərbaycanın COP29-da strateji əhəmiyyəti" adlı konfransda çıxış ediblər**

Böyük Britaniyanın Lordlar Palatasının iki üzvü - uzun müddət Mühafizəkarlar Partiyasının icraçı direktoru vəzifəsini icra etmiş lord Darren Mott və 7 il İşçi Partiyasının Baş katibi vəzifəsində işləmiş lord İain McNicol ADA Universitetində təşkil edilmiş "Azərbaycanın COP29-da strateji əhəmiyyəti" adlı konfransda çıxış etmək üçün "Qarabağ" Futbol Klubunun prezidenti, iş adamı Tahir Gözəlin dəvəti ilə Bakıya səfər ediblər.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edənlər arasında Tahir Gözəl, lord İain McNicol, lord Darren Mott və ODI (Dənizlər Ötəsi İnkişaf İnstitutu) Qlobal Risklər və Davamlılıq komandasının direktoru Rebecca Nadin yer alıblar. Konfrans müddətində Azərbaycanın COP29-da strateji əhəmiyyəti, beynəlxalq əməkdaşlığın inkişafındakı rolu müzakirə edilib, tələbələrin sualları cavablandırılıb.

Lord McNicol və lord Mott COP29-a ev sahibliyi edən ölkəmizi ziyarətdən məmnun olduqlarını söyləyib, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə töhfələrinə görə minnətdarlıqlarını bildirdilər.

Lord İain McNicol və lord Mott haqqında

Lord İain McNicol Lordlar Palatasının, həmkarlar ittifaqının üzvü və 2011-ci ildən 2018-ci ilə qədər İşçi Partiyasının baş katibi vəzifəsində çalışmış siyasətçidir. Bundan əvvəl o, GMB İttifaqının milli siyasi məmuru vəzifəsində çalışıb. İain İnvestisiya və Qənaət Alyansının (TISA) baş məsləhətçisi, "Rewired.Earth"da Məsləhət Şurasının sədri, Böyük Britaniyanın Hidrogen Siyasəti Komissiyasında komissar və Astra Protokolunda strateji məsləhətçidir.

Lord Darren Mott Mühafizəkarlar Partiyasının onilliklər ərzində ən uğurlu seçki kampaniyası zamanı kampaniya direktoru olub və 2019-cu ilin tarixi nəticəsini təqdim edib. Bu uğurdan sonra o, partiyanın icraçı direktoru vəzifəsinə yüksəlib. O, səkkiz ümumi seçki kampaniyası üzərində işləyərək, altı Baş nazirə xidmət edib. Karyerasına partiyada təcrübəçi kimi başlayan lord Mott uzun müddət icraçı direktor vəzifəsində fəaliyyət göstərib.

**AZƏRTAC**
**2024, 23 oktyabr**